**Rumella Telman qızı CƏFƏROVA, PhD**
Azərbaycan Memarlıq və İnşaat Universiteti

# AZƏRBAYCANDA İNVESTİSİYA SİYASƏTİ VƏ TİKİNTİ SEKTORUNA İNVESTİSİYALARIN ÖZÜMƏMƏXSUSLUĞU

**Xülasə**

Məqalədə Azərbaycanda investisiya siyasəti və tikinti sektoruna yönəldilən investisiyaların cari dinamikası, həmçinin belə investisiyaların tikinti sektorunda yaradılan əlavə dəyərə təsirləri tədqiq edilib. Müəllif belə nəticəyə gəlib ki, Azərbaycanda investisiya siyasəti ilə bağlı qanunvericilik ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsinə şərait yaradıb. Tikinti sektoruna yönəldilən daxili investisiya bu sektorda yaradılan əlavə dəyərə pozitiv təsir göstərib.

**Açar sözlər:** tikinti sektoru, investisiya siyasəti, daxili investisiya, xarici investisiya

**UOT:** 338
**JEL:** L58

## Giriş

İnvestisiya istənilən ölkənin iqtisadiyyatında mühüm əhəmiyyətə malikdir. Məhz investisiya olmadan iqtisadiyyatın, demək olar ki, heç bir sahəsini inkişaf etdirmək mümkün deyil. Müasir iqtisadi nəzəriyyələr və empirik tədqiqatlar da sübut edir ki, investisiyanın həcmi və ondan istifadənin səmərəliliyi iqtisadi artımın əsas determinantlarındandır. Hə makrosəviyyədə, həm də mikrosəviyyədə investisiyaların cəlbi və belə investisiyaların səmərəli istifadəsi ölkənin və ayrı-ayrı müəssisələrin rəqabətliliyini təmin edir. Lakin investisiyaların cəlbi və istifadəsi prosesi hər şeydən əvvəl biznes mühitinin əlverişliliyi ilə bağlıdır. Belə ki, investor hər hansı bir ölkədə və ya iqtisadi fəaliyyət sahəsində investisiya qoymaq istəyirsə, üzləşə biləcəyi risklərin minimuma endirilməsinə və yüksək gəlirlərin əldə edilməsinə əmin olmalıdır. İnvestisiyaların yönəldilməsi prosesində risklər də müxtəlif xarakterlidir. Elə risklər var ki, onlar bazarın obyektiv qanunauyğunluqları ilə bağlıdır. Bura daxili bazarda tələbin, təklifin və ya qiymətlərin dəyişməsi daxildir. Dünya bazarı ilə bağlı iqtisadi fəaliyyət sahəsinə qoyulan investisiyalar dünya bazarındakı qiymətlərə aid qeyri-müəyyənliklərlə qarşılaşmalı olurlar. Təbii fəalakətlər, pandemiyalar və sair də investisiya fəaliyyətinə təsir göstərir. İnvestisiya fəaliyyəti üçün ciddi maneələrdən biri də siyasi proseslərdir. İnvestor siyasi sabitlik olmayan ölkələrdə fəaliyyət göstərməyə cəhd etmir. Çünki belə ölkələrdə investisiyanın təhlükəsiz və səmərəli istifadəsi çətin olur. Digər tərəfdən, əldə edilən gəlirlərdən istifadə üçün də siyasi sabitliyin olması vacibdir. Siyasi böhranlar, münaqişələr, daxili qeyri-sabitlik, müharibələr və sair oxşar hadisələr iqtisadiyyata investisiya qoyuluşunu azaldır. İqtisadi nəzəriyyəyə əsaslanaraq, iddia edə bilərik ki, iqtisadi artımıma dolayısı ilə səbəb olan amillərin, o cümlədən, idarəetmənin, biznes mühitinin, institutlaşmanın, dövlət müdaxiləsinin təhsilin, səhiyyənin və sair amillərin təsir kanalı investisiyalarla reallaşır. Ona görə də hər bir ölkə investisiya fəaliyyətinin genişləndirilməsində maraqlıdır. Xüsusilə, maliyyə imkanları məhdud olduğundan hər bir ölkə xarici investisiyaların cəlbinə maraqlıdır. Xarici investisiyalar, xüsusilə, inkişaf etməkdə olan ölkələrə yönələn xarici investisiyalar təkcə maliyyə axını deyil, həm də yeni texnologiya, bilik və bacarıq axınıdır. Xarici investisiyaların əsas hissəsi transmilli şirkətlər tərəfindən reallaşdığından belə investisiyalar inkişaf etməkdə olan ölkələrə yeni idarəetmə bacarıqları da gətirir. Məhz xarici investisiyalar qloballaşma prosesinin əsas drayverlərindəndir. Belə investisiyaların qoyulması xarici investorlarla, belə investisiyalara zəmanət verən beynəlxalq təşkilatların və yerli ölkələrin hökumətlərinin qarşılıqlı fəaliyyətini də zəruri edir.

Azərbaycan müstəqillik əldə etdikdən dərhal sonra ölkənin siyasi həyatındakı qeyri-müəyyənlik və daxili çəkişmələr ölkədə investisiya qoyuluşlarının həcminə neqativ təsir göstərdi. İqtisadiyyatın bütün sahələrində ciddi geriləmə müşahidə edildi. Hətta ölkənin gəlirlərində mühüm çəkiyə malik olan neft gəlirləri də kəskin azaldı. İnvestorların Azərbaycanda fəaliyəti üçün təhlükəsiz biznes mühitinin olmaması nəticəsində iqtisadiyyatda maliyyə qıtlığı yarandı. Yalnız 1993-cü ildən sonra, ölkədə siyasi sabitliyin getdikcə təmin edilməsi həm Beynəlxalq Maliyyə İnstitutlarını,

həm də Transmilli Şirkətləri ölkəyə cəlb etməyə imkan yaratdı. Xüsusilə, 1994-cü ilin sentyabrında "Əsrin Müqaviləsinin" imzalanması böyük həcmdə xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinə səbəb oldu. Bu, ölkəyə böyük həcmdə maliyyənin gəlməsi ilə yanaşı, həm də Beynəlxalq Maliyyə İnstitutlarının, xüsusilə, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Valyuta Fondunun və sair institutların Azərbaycana inamının artması demək idi.

1994-cü ildən sonra Azərbaycana xarici investisiyaların daxil olması ölkədə iqtisadi dirçəliş üçün şərait yaratdı. Ölkəyə yeni texnika və texnologiya axını baş verdi. Azərbaycan manatının sürətli devalvasiyası getdikcə azaldı və əhalinin sosial-iqtisadi vəziyyəti yaxşılaşmağa başladı. Müstəqilliyin ilk on illiyində hətta 40%-dən yüksək olan yoxsulluq səviyyəsi 2000-ci illərin əvvəllərində sürətlə aşağı düşməyə bağladı. İqtisadiyyatın bütün sektorlarında məşğulluq səviyyəsi artmağa başladı. Ölkədə investisiya fəaliyyəti üçün yaradılan münbit şərait nəinki xarici investisiyaların, həm də daxili investisiyaların həcminə müsbət təsir etdi. Ölkə iqtisadiyyatına qoyulan investisiyaların həm iqtisadi inkişafa, həm də əhalinin rifah səviyyəsinə təsirləri əsrin əvvəllərindən aydın hiss edilməyə başladı. Neft iqtisadiyyatına qoyulan investisiyaların səmərəli istifadəsi və ölkəyə gələn gəlirlərin artması, digər sahələrin də inkişafına təsir göstərdi. Belə sahələrdən biri də tikinti sektoru idi.

Neft iqtisadiyyatına qoyulan investisiyalar şübhəsiz ki, neft iqtisadiyyatına birbaşa və dolayısı ilə xidmət edən sahələrə də yönəldilirdi. Neft sənayesi üçün infrastrukturun və zəruri tikintilərin qurulması bu sahədə məhsul istehsalının artırılmasına xidmət edirdi. Lakin neft gəlirlərinin artması və ölkənin maliyyə imkanlarının çoxalması əhalinin rifahına xidmət edən tikinti sektorunun da genişlənməsinə səbəb oldu. Ölkə miqyasında 2005-ci ildən sonra sürətlənən və hətta "Tikinti bumu" səviyyəsində qiymətləndirilən tikinti-quraşdırma fəaliyyəti, həmçinin Azərbaycanın müxtəlif şəhər və qəsəbələrində həyata keçirilən mənzil tikintisi investisiya fəaliyyəti sahəsində biznes üçün yaradılan əlverişli mühitlə bağlı idi.

Ölkədə investisiya fəaliyyəti ilə, həmçinin tikinti fəaliyyəti ilə bağlı qanunvericiliyin daim təkmilləşməsi və biznes mühitinin əlverişliliyinin artırılması tikinti sektorunun inkişafında mühüm rol oynayıb. Elə bunun nəticəsidir ki, Azərbaycanda "mühüm əhəmiyyətli müəssislərin (istehsal güclərinin) və obyektlərin istifadəyə verilməsi" [1] göstəricisi ilbəil artıb. Tikinti sektorunda tikinti işlərinin dəyəri 21 il ərzində (2000-2021) nominal qiymətlərlə 324,5 milyon manatdan 9 974,8 milyon manata qədər artıb (30.7 dəfə). 1995-ci il baza ili kimi götürülərsə, bu, 282,4195 milyon manatdan (2000-ci il) 2470,233 milyon manata (2021-ci il) qədər (8,75 dəfə) artım deməkdir. Başqa sözlə desək, 21 il ərzində orta hesabla illik real artım 46%-dən çox olub. Həmin illərdə yaradılan əlavə dəyər isə nominal qiymətlərlə 308,0 milyon manatdan (2000-ci il) 5470,9 milyon manata qədər (2021-ci il, yəni 17.8 dəfə artıb. 1995-ci ili baza ili hesab etsək, real qiymətlərlə bu artım 245,7959 milyon manatdan (2000-ci il) 611,7466 milyon manata qədər (2021), yəni 2.5 dəfə artıb. 1-ci və 2-ci qrafiklərdən görünür ki, son 20 ildə tikinti sektorunda görülən işlərin və yaradılan dəyərin həcmi 2012-2014-cü illərdə ən yüksək olub. Sonrakı illərdə isə müəyyən qədər azalmalar müşahidə edilir. Buna baxmayaraq, son 20 ildə həm nominal qiymətlərlə, həm də real qiymətlərlə tikinti sektorunda yaradılan dəyər və görülən işlərin həcmi kəskin artıb. Şübhəsiz ki, bunun da əsas səbəbi bu sektora yönəldilən investisiyaların həcmi ilə bağlıdır.




**Qrafik 1. Tikinti müəssisələrində yaradılan əlavə dəyər (milyon manat)**




**Qrafik 2. Tikinti müəssisələrində görülən işlərinin dəyəri (milyon manat)**

Müxtəlif iqtisadi fəaliyyət sahələrinə, o cümlədən tikinti sektoruna yönələn investisiyaların həcmi digər amillərlə yanaşı, həm də müvafiq qanunvericilikdən asılıdır. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu [2] qəbul edilənə qədər ölkəmizdə "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikası Qanunu [3] qüvvədə olub. 2022-ci ildə "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin 18.2 bəndinə əsasən "Xarici investisiyanın qorunması haqqında" və "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarının qüvvədə olduğu zaman investorlara münasibətdə həmin qanunlar əsasında təmin edilən daha əlverişli şərtlər 10 (on) il müddətinə qüvvəsini saxlayır." Bu maddə ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir.

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən 1) mülkiyyətin toxunulmazlığı; 2) qanunçuluq; 3) insan və vətəndaş hüquq və azadlıqlarının qorunması və təmin edilməsi; 5) konfidensial məlumatların qorunması investisiya fəaliyyəti sahəsində dövlət tənzimlənməsinin əsas prinsipləri olaraq, qəbul edilib.

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu ölkəmizdə investisiya fəaliyyətinin genişləndirilməsi üçün zəruri olan əlverişli investisiya mühitinin formalaşmasına və azad rəqabət mühitinin gücləndirilməsinə, investorların hüquqlarının və qanuni mənafelərinin qorunmasına, investorlara bərabər imkanların yaradılmasına, iqtisadiyyatın prioritet sahələrində investsiya layihələrinin dəstəklənməsinə tam zamanət verir. Qanun ölkədə investisiya fəaliyyətinin təşviqi üçün vergi və dövlət ödənişləri üzrə güzəştləri, güzəştli şərtlərlə kreditlərin verilməsini, xüsusi iqtisadi zonaların, sənaye parklarının yaradılmasını, dövlət-özəl tərəfdaşlığı mexanizminin genişləndirilməsini və sair tədbirləri nəzərdə tutur. Şübhəsiz ki, investisiya fəaliyyətinin təşviqi üçün nəzərdə tutulan güzəştlər bütün investisiya layihələrinə deyil, yalnız prioritet sahələrə yönələn investisiyalara tətbiq edilir. Belə layihələr arasında innovasiyaların tətbiqinə yönələn, ekoloji təmiz texnologiyalardan istifadəni, həmçinin təbii sərvətlərdən səmərəli istifadəni nəzərdə tutan layihələr üstünlük təşkil edir.

Yuxarıda qeyd etdiyimiz kimi, investisiya fəaliyyəti zamanı investorlar ölkədə siyasi sabitliyə xüsusi önəm verirlər. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, ölkədə siyasi sabitlik pozulanda investora məxsus olan mülkiyyət və maliyyə vəsaitləri milliləşdirilir. Buna ən bariz nümunə bir zaman Rusiya imperiyasına daxil olan ölkələrdə 1917-ci il bolşevik inqilabından sonra xüsusi mülkiyyətin ləğv edilməsi və tam milliləşdirilməsidir. Digər oxşar təcrübələr hazırda Rusiya-Ukrayna münaqişəsinə görə həm Rusiyada, həm də Ukraynada olan investorların qarşılaşdığı problemlərlə bağlıdır. Hər iki ölkədə çoxlu sayda investor öz vəsaitlərini bu ölkələrdən təhlükəsiz çıxarmaqda çətinlik çəkirlər. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu bəzi istisnalar olmaqla, Azərbaycan Respublikasının ərazisində investisiyanın və investisiya qoyuluşunun investorun razılığı olmadan alınmasını və milliləşdirilməsini qadağan edir. Qanunun 13-cü maddəsinin 13.1 bəndi "İnvestisiyanın dövlət ehtiyacları üçün alınması, habelə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 209-cu maddəsi ilə nəzərdə tutulan rekvizisiyanı istisna halı kimi nəzərdə tutur. Qanunun 14-cü maddəsi isə investorlara investisiya gəlirlərinin köçürülməsinə dair təminatlar verir. Lakin bu zaman müəyyən istisnalar Qanunun 14-cü maddəsinin 14.3-cü bəndi ilə müəyyən edilib.

Son 25 ildə ölkəyə investisiyaların cəlbini stimullaşdıran digər qanunvericilik aktlarla yanaşı "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikası Qanunu bütün iqtisadi fəaliyyət sahələrində olduğu kimi, tikinti sektorunda da həm daxili, həm də xarici investisiyaların həcminə müsbət təsir göstərib. 2022-ci ildə qəbul edilən "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikası Qanununun əsas prinsiplərini, məqsədlərini və əsas müddəalarını ehtiva edərək, investisiyaların cəlbi üçün biznes subyektlərinə daha əlverişli şəraitin yaradılmasını nəzərdə tutur.

Son 25 ildə Azərbaycanda istifadəyə verilmiş əsas fondların və əsas kapitala yönəldilmiş investisiyaların həcmi həm nominal, həm də real qiymətlərlə (1995-ci il baza ili kimi götürülüb) davamlı olaraq artıb. 3-cü qrafikdən görünür ki, əsas kapitala yönələn investisiyaların real qiymətlərlə həcmi 2013-cü ildə maksimum həddə şataraq 6.6 milyard manat olub.




**Qrafik 3. Əsas kapitala yönəldilmiş investisiyaların həcmi (mln. manatla)**




**Qrafik 4. Əsas kapitala yönəldilmiş investisiyaların mülkiyyət növlərinə görə bölgüsü (%)**

Sonrakı illərdə bu məbləğ azalıb. Əsas kapitala yönələn investisiyaların mülkiyyət növünə görə bölgüsünü xarakterizə edən 4-cü qrafikdən görünür ki, Azərbaycanda əsas kapitala yönələn investisiyalarda dövlətin mühüm payı var. lakin bu pay sabit deyil və ildən ilə kəskin dəyişir. Bəzi illərdə (2009-2013-cü illər) 60%-ə qədər yüksələn investisiyaların həcmi bəzi illərdə(məsələn, 2004-cü il) hətta 11.7%-ə qədər azalıb. Lakin son illərdə əsas kapitala yönələn investisiyaların həcmində dövlətin payı 30-50% ətrafındadır. İşğaldan azad olunan ərazilərdə geniş infrastruktur və tikinti-quraşdırma işləri həyata keçirildiyindən əsas investisiyaların həcmində dövlətin payının artacağı gözləniləndir. Qrafikdən görünür ki, Azərbaycanda əsas kapitala investisiyaların həcmində bələdiyyələrin rolu, demək olar ki, nəzərə çarpacaq dərəcədə deyil. maraqlı fakt ondan ibarətdir ki, özəl investisiyaların payı, zəif templə olsa da, getdikcə artmaqdadır. Özəl investisiyaların payı son 20 ildə 10%-dən az olmayıb və hətta son illərdə 20% ətrafında dəyişir.




**Qrafik 5. İnvestisiyaların yönəldiyi sahələr üzrə bölgüsü (mln.manat)**




**Qrafik 6. Neft-qaz və qeyri neft-qaz sektorunda əsas kapitala yönəldilmiş investisiyaların həcmi (mln.manat)**

Şübhəsiz ki, daxili və xarici investisiyaların yalnız müəyyən hissəsi tikinti sektoruna, daha doğrusu, yaşayış evlərinin tikintisinə yönəldilir. Əslində əsas kapitala yönələn investisiyaların mühüm hissəsi tikinti-quraşdırma işləri ilə bağlıdır. Buna baxmayaraq, biz yaşayış evlərinin tikintisinə yönəldilən investisiyaları digər sahələrdə tikinti quraşdırma işlərindən fərqləndirəcəyik. 5-ci qrafikdən görünür ki, yaşayış evlərinin tikintisinə yönəldilən investisiyaların həcmi son 20 ildə 101 milyon manatdan (2001-ci il) 1.4 milyard manata qədər (2018-ci il) artıb. 2015-ci ildə manatın devalvasiyası ilə bağlı olaraq, yaşayış evlərinin tikintisinə yönələn investisiyaların həcmi müəyyən qədər azalsa da, sonrakı illərdə yenidən artım baş verib. Böyük ehtimalla, 2021-ci ildə yaşayış evlərinin tikintisinə yönələn investisiyaların həcmində baş verən azalma COVİD-19 pandemiyası ilə bağlı olub. Cəmi investisiyaların həcminin artmasına baxmayaraq, yaşayış evlərinin tikintisinə yönələn investisiyaların həcmi son 20 ildə 10%-dən az olub. Məhsul istehsalına və xidmət sektoruna yönələn investisiyalar cəmi investisiyalarda üstünlük təşkil edib. 5-ci qrafikdə verilən məlumatlara əsasən, tikinti-quraşdırma işlərinə yönəldilən investisiyaların cəmi investisiyalarda

payı 33%-dən (2001-ci il) 75%-ə qədər (2014-cü il) dəyişib. Bura yaşayış evlərinin tikintisinə yönəldilən investisiyaların payını da əlavə etsək, əsas kapitala yönələn investisiyaların mühüm hissəsinin tikinti sektorunda istifadəsinə əmin ola bilərik.

Əsas kapitala yönələn investisiyaların müxtəlif iqtisadi fəaliyyət sahələri arasında bölgüsü iqtisadiyyatın diversifikasiyasının güclənməsində mühüm rola malikdir. 2005-ci ilədək Azərbaycanda əsas kapitala investisiyaların mühüm hissəsi mədənçıxarma sənayesinə yönəlib. Bu sahə digərləri ilə müqayisədə daha çox kapitaltutumlu sahədir. Buna baxmayaraq, digər iqtisadi sektorlarda əsas kapitala investisiyaların artırılması ölkədə qeyri-neft-qaz sektorunun da inkişafına təkan verib. Azərbaycanda investisiya fəaliyyətinin tənzimlənməsi zamanı strateji prioritetlər nəzərə alınır. Neft və qaz ehtiyatlarının Azərbaycanda bol olmasına baxmayaraq, bu təbii ehtiyatlar tükənəndir və ölkənin dayanıqlı inkişafının təmin edilməsi qeyr-neft sektorunun inkişafından asılıdır. Elə ona görə də 2005-ci ildən başlayaraq, qeyri-neft-qaz sektorunda əsas kapitala yönəldilən investisiyaların həcmi xeyli artıb. 6-cı qrafikdən görünür ki, son 15 il ərzində yalnız 2016-cı ildə neft sektorunda əsas kapitala qoyulan investisiya qeyr neft-qaz sektoru ilə müqayisədə çox olub. Digər illərdə isə bu iki sektor arasındakı fərq qeyr-neft-qaz sektorunun xeyrinə ciddi fərqlənib.

Qeyd edək ki, son 15 ildə qeyri-neft-qaz sektorunda əsas kapitala yönəldilən investisiyalarda daxili mənbələr üstünlük təşkil edib (qrafik 7). Əlbəttə bu mənbələr arasında dövlət investisiyası mühüm çəkiyə malikdir. Bu nisbət son 20 ildə ilbəil dəyişsə də əsas kapitala yönələn daxili investisiyalarda dövlətin payı 50%-60% ətrafında olub. Xarici investisiyaların həcmində isə, əksinə qeyri-dövlət müəssisələrinin payı daha yüksəkdir. Bu onunla bağlıdır ki, xarici investorlar arasında özəl hesab edilən transmilli şirkətlər üstünlük təşkil edir.




**Qrafik 7. Qeyri-neft-qaz sektorunda daxili və xarici investisiyaların dinamikası (mln.manat)**




**Qrafik 8. Tikinti sektoruna yönəldilən daxili investisiyaların həcm dinamikası (mln.manat) (baza ili 1995-ci il).**

2000-2008-ci illərarası dövrdə xarici ölkələr üzrə əsas kapitala yönəldilmiş xarici investisiyalarda 1%-dən yuxarı investisiyalar Birləşmiş Krallığa (45%), ABŞ-a (19,7%), Yaponiyaya (10,6%), Norveçə (6,8%), Türkiyəyə (6,3%) və Almaniyaya (3,3%) məxsus olub. Bu ölkələr həmin illərdə əsas kapitala yönəldilmiş cəmi xarici investisiyaların 91.7%-ni təmin ediblər.

2009-2015-ci illərarası dövrdə xarici ölkələr üzrə əsas kapitala yönəldilmiş xarici investisiyalarda 1%-dən yuxarı paya Birləşmiş Krallıq (36.4%), ABŞ (10.6%), Yaponiya (8.2%), Norveç (9.9%), Türkiyə (8.2%), Fransa (3.2%), Çexiya (3.8%), İsveçrə (2,2%), Malayziya (1.5%), İran (3.6%) və Rusiya (3.6%) malik olub. Bu ölkələr həmin illərdə əsas kapitala yönəldilmiş cəmi xarici investisiyaların 91.2%-ni təmin ediblər. 2016-2021-ci illərarası dövrdə xarici ölkələr üzrə əsas kapitala yönəldilmiş xarici investisiyalarda 1%-dən yuxarı paya Birləşmiş Krallıq (27.8%), ABŞ (6.62%), Yaponiya (6.3%), Norveç (2.9%), Türkiyə (11.3%), Fransa (1.8%), Çexiya (2.05%), İsveçrə (6.8%), Malayziya (7.3%), İran (4.7%) və Rusiya (4.7%), Lüksemburq (2.03%) malik olub. Bu ölkələr həmin illərdə əsas kapitala yönəldilmiş cəmi xarici investisiyaların 84.3%-ni təmin ediblər. Son zamanlar Azərbaycan iqtisadiyyatında xarici investisiyaların cəlbində diversifikasiya səviyyəsi yüksəlib. Qeyd etmək lazımdır ki, Azərbaycanın neft-qaz sənayesinə investisiya yatıran ölkələrin (məsələn, Birləşmiş Krallığın və ABŞ-ın ) payı nəzərdən keçirilən dövrlərdə xeyli azalıb. Lakin bu illərdə İsveçrənin, Türkiyənin Malayziyanın Azərbaycandakı investisiyasının həcmi artıb.

Tikinti sektoruna yönələn daxili investisiyalar da son 20 ildə həm nominal, həm də real qiymətlərlə artıb. Bəzi illər, məsələn, 2007-ci, 2009-cu, 2013-cü, 2015-ci, 2016-cı və 2020-ci

illər istisna olmaqla, tikinti sektoruna yönələn daxili investisiyalar davamlı olaraq artıb (qrafik 8). Tikinti sektorunda yaradılan əlavə dəyər bu sahəyə yönəldilən daxili investisiyalardan çox asılıdır. Aparılan ekonometrik analizlər göstərir ki, tikinti sektorunda yaradılan əlavə dəyər ($CV_t$) ilə investisiyaların həcmi ($İNV_t$) arasındakı əlaqəni xarakterizə edən cüt reqresiya tənliyini aşağıdakı kimi ifadə etmək olar:

$$CV_t = \underset{(108.7)}{491.9} + \underset{(0.2176)}{0.6 * İNV_t}$$

Bu əlaqədə determinasiya əmsalı o qədər də yüksək deyil ($R^2 = 0.28$). Lakin bu əlaqənin trendi deməyə əsas verir ki, Azərbaycanda tikinti sektorunda əsas kapitala yönələn daxili investisiyalar bu sektorda yaradılan əlavə dəyərə pozitiv təsir edir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Elektron resurs: www.stat.gov.az (müraciət edilib: iyun 2022-ci il)
2. İnvestisiya Fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanunu. Elektron resurs: https://e-qanun.az/framework/50048 (müraciət edilib: iyun 2022-ci il)
3. Xarici investisiyaların qorunması haqqında Azərbaycan Respublikası Qanunu. Elektron resurs: https://e-qanun.az/framework/7000 (müraciət edilib: iyun 2022-ci il)

**Румелла ДЖАФАРОВА**, PhD
Азербайджанский Архитектурно-Строительный Университет

## Инвестиционная политика и специфика инвестиций в строительный сектор Азербайджана

Резюме

В статье изучена инвестиционная политика в Азербайджане и текущая динамика инвестиций, направленных в строительный сектор, а также влияние таких инвестиций на добавленную стоимость, создаваемую в строительном секторе. Автор пришел к выводу, что законодательство об инвестиционной политике в Азербайджане создало условия для привлечения инвестиций в экономику страны. Внутренние инвестиции, направленные в строительный сектор, оказали положительное влияние на добавленную стоимость, созданную в этом секторе.

**Ключевые слова:** строительная отрасль, инвестиционная политика, внутренние инвестиции, иностранные инвестиции.

**Rumella Jafarova**, PhD
Azerbaijan Architecture and Construction University

## INVESTMENT POLİCY AND SPECİFİCİTY OF İNVESTMENTS İN THE CONSTRUCTİON SECTOR İN AZERBAİJAN

**Summary**

The investment policy in Azerbaijan and the current dynamics of investments directed to the construction sector, as well as the effects of such investments on the added value created in the construction sector were studied in the article. The author came to the conclusion that the legislation on investment policy in Azerbaijan created conditions for attracting investments to the country's economy. Domestic investment directed to the construction sector has had a positive effect on the added value created in this sector.

**Keywords**: construction sector, investment policy, domestic investment, foreign investment